**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin İntizam komissiyasının ilk iclasının**

**P R O T O K O L U № 1**

**Naxçıvan şəhəri** **13 fevral 2024-cü il**

13 fevral 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının ilk iclası keçirilib.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının üzvü Hüseyn Niftəliyev

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının üzvü Aidə Allahverdiyeva

**İclasda iştirak etdilər:**

1. Əliyeva Vüsalə Abazər qızı -Komissiyanın üzvü
2. Məmmədov Ehtimad Cəfər oğlu -Komissiyanın üzvü
3. Babayev Tofiq Süleyman oğlu -Komissiyanın üzvü

**Dəvət olunanlar:**

1. Ramil Nəbiyev -Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
2. Əliheydər Qurbanlı -Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
3. Oruc Babayev -Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi

**İclasın gündəliyi:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının sədrinin, sədr müavininin və katibinin seçilməsi

İclası Hüseyn Niftəliyev açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının 5 üzvü, Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin məsul şəxsləri iştirak edirlər. O, Ali Məclisin Daxili Nizamnaməsinin 46.4-cü maddəsinə əsasən

İntizam komissiyasının iclasının səlahiyyətli olduğunu qeyd etdi və komissiya üzvlərinə gündəlikdə duran məsələlərlə bağlı məlumat verdi.

Hüseyn Niftəliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 1 fevral tarixli 40 nömrəli qərarı ilə İntizam komissiyasının yaradıldığını və komissiyanın 5 üzvdən ibarət tərkibinin təsdiq edildiyini diqqətə çatdırdı. Bildirdi ki, Daxili Nizamnaməyə əsasən İntizam komissiyası deputatlar sırasından 1 il müddətinə seçilir və seçildikdən sonra komissiya öz üzvləri sırasından komissiyanın sədrini, sədr müavinini və katibini seçir.

Hüseyn Niftəliyev İntizam komissiyasının üzvü Ehtimad Məmmədovun fəaliyyətini müsbət dəyərləndirdi və komissiyanın sədri vəzifəsinə onun namizədliyini təklif etdi.

Sonra söz komissiyanın üzvü Aidə Allahverdiyevaya verildi.

**Çıxışda:** Aidə Allahverdiyeva komissiyanın sədri vəzifəsinə təklif olunan Ehtimad Məmmədovun fəaliyyətini müsbət qiymətləndirdi və seçiləcəyi təqdirdə ona həvalə olunacaq məsuliyyətin öhdəsindən asanlıqla gələcəyinə əminliyini ifadə etdi.

Sonra iclasın sədri Hüseyn Niftəliyev Ali Məclisin Daxili Nizamnaməsinin 46.4-cü maddəsinə əsasən komissiyanın bütün qərarlarının onun iclaslarında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edildiyini diqqətə çatdırdı və Ehtimad Məmmədovun İntizam komissiyasının sədri vəzifəsinə namizədliyi məsələsini səsə qoydu.

**Təklif komissiya üzvləri tərəfindən yekdilliklə qəbul olundu.**

Sonra söz komissiyanın sədri Ehtimad Məmmədova verildi.

**Çıxışda:** Ehtimad Məmmədov Ali Məclisin rəhbərliyinə minnətdarlığını, deputatlarına isə ona göstərilən etimada görə təşəkkürünü bildirdi və Ali Məclisin Daxili Nizamnaməsinə əsasən komissiyanın gələcək fəaliyyəti istiqamətində görüləcək işlərdən danışdı. O, çıxışının sonunda komissiyanın sədr müavini vəzifəsinə Vüsalə Əliyevanın, katibi vəzifəsinə isə Tofiq Babayevin namizədliyini irəli sürdü.

Təklif səsə qoyuldu və komissiya üzvlərinin sadə səs çoxluğu ilə Vüsalə Əliyeva İntizam komissiyasının sədr müavini, Tofiq Babayev isə katibi seçildi.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının qərarı oxundu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyası qərara alır:**

1. Ehtimad Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının sədri seçilsin.

2. Vüsalə Əliyeva Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının sədr müavini, Tofiq Babayev isə komissiyanın katibi seçilsin.

**İclasa sədrlik edən:** **H. Niftəliyev**

**Katib:** **A. Allahverdiyeva**